# Həftəlik
# *Bülleten*



**116**

**7 Noyabr 2025**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Britaniya şirkəti "Dəmirli"də mis konsentratı üzrə 25 milyon dollarlıq saziş imzalayıb.**

Azərbaycanda qızıl, mis və gümüş hasil edən və Londonda AIM birjasında siyahıya alınmış Anglo Asian Mining PLC şirkəti Qarabağdakı "Dəmirli" mis mədənində hasil olunan konsentratın satışına dair müqavilə imzalayıb. Müqavilə Trafigura Pte Ltd şirkəti ilə bağlanıb və 25 milyon ABŞ dollarınadək dövri qabaqcadan ödəniş xəttini nəzərdə tutur. Şirkət artıq Azərbaycan hökumətindən "Dəmirli" mədəninin emal zavodunun istismarı üçün tələb olunan lisenziyaları alıb. Anglo Asian-a həmçinin mövcud tullantı anbarından (tailings dam) 12 ay müddətinə istifadə icazəsi verilib. Bu müddətdə ikinci tullantı anbarının tikintisi planlaşdırılır. Zavodun icarə müqaviləsi 1 oktyabr 2025-ci ildən qüvvəyə minib. Trafigura ilə imzalanmış satış müqaviləsi hökumət tərəfindən təsdiq olunub. Anglo Asian ilk mis konsentratı satışının 2025-ci ilin noyabr ayının ortalarında baş tutacağını gözləyir. Şirkətin baş direktoru Rza Vəziri bildirib ki, "Dəmirli" mədənində zavodun və tullantı anbarının istismarı üçün bütün müvafiq lisenziyaların alınması şirkətin hasilat portfelini genişləndirəcək: "Trafigura ilə imzalanan satış müqaviləsi bizə mis konsentratının satışına başlamağa və "Dəmirli"dən gəlir əldə etməyə imkan verir".



**Yaşayış binaları ilə bağlı yeni tələb.**

Yeni tikilən yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi olacaq. Bu barədə məsələ Milli Məclisin plenar iclasında müzakirə olunan “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb. Layihəyə əsasən, aşağıdakı bina və tikililər istisna olmaqla yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi olacaq:

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Qanuna uyğun olaraq dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmiş binalar (tikililər); yardımçı və müvəqqəti tikililər; istixanalar və anbar binaları; istehsalat binaları; fərdi yaşayış evləri; Şəhərsalma və Tikinti Məcəlləsinin 81.1-ci və 89.1-ci (89.1.4-cü maddə istisna olmaqla) maddələri ilə müəyyən edilmiş tikinti obyektləri.

Pasportlaşdırma bu qanun qüvvəyə mindikdən sonra yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binaları üçün məcburi olacaq, istismarda olan binalara şamil olunmayacaq. Qeyd edək ki, qanunda binaların enerji effektivliyi üzrə pasportlaşdırılması qaydaları öz əksini tapıb. Həmin qaydalar Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək.



**Türkiyənin meşə və tikinti sənayeçisi məhsullarını Azərbaycan bazarına çıxarmaqda maraqlıdır.**

Türkiyənin "Orman Ürünleri Emprenye İnşaat Nakliye və Otomotiv Sanayi ve Ticaret" şirkəti məhsullarını Azərbaycan bazarına çıxarmaqda maraqlıdır. Bunu açıqlamasında sözügedən şirkətin rəhbəri Müzəffər Dəmirəl deyib. O, əvvəlcə şirkətin fəaliyyəti istiqaməti və ixrac potensialı barədə danışıb: "Biz ağac və meşə məhsulları istehsal edirik. Bununla yanaşı, müxtəlif tətbiqlər də həyata keçiririk. Məsələn, taxta terraslar, hovuz kənarlarının düzəldilməsi, taxta evlər və s. inşa edirik. İxrac fəaliyyətimizə gəlincə, daha çox Şimali İraq və Liviyaya ixrac etmişik. Azərbaycanla ixrac sahəsində əməkdaşlığımız olmayıb. İdxalımız əsasən Finlandiya və digər Şimali Avropa ölkələrindən olur. Bəzən Rusiya və Sibir bölgəsindən gətirilən taxta məhsulları da alırıq. Məsələn, Sibir şamı Türkiyədə çox sevilir, çünki bu ağac budaqsız olur, yəni səthində "budaq" deyilən dairəvi izlər yoxdur. Sibir şamının keyfiyyəti yüksək olsa da, məsafə uzaq olduğuna görə nəqliyyat xərcləri çox olur". Şirkət rəsmisi Azərbaycan bazarına maraqlı olduqlarını vurğulayıb: "Azərbaycan coğrafi mövqeyinə görə Türkiyəyə daha yaxındır. Əlbəttə, istərdik ki, Azərbaycan bazarında da fəaliyyət göstərək. Biz burada emal olunmuş taxta məhsulları sata bilərik. Çünki xam taxtanı Azərbaycan daha asanlıqla Rusiyadan əldə edə bilər".



**Komitə: Azərbaycan Dünya Şəhərsalma Forumuna aktiv hazırlaşır.**

Gələn il Bakı şəhərində Dünya Şəhərsalma Forumu keçiriləcək. Ölkəmiz və cəmiyyətimiz bu mühüm tədbirə aktiv şəkildə hazırlaşır.

Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini İlqar İsbatov ADA Universitetində təşkil edilən "Baku Archifest 2025" memarlıq və şəhərsalma festivalında deyib.

O bildirib ki, Azərbaycanda şəhərsalma və quruculuq prosesləri torpaqlarımız işğaldan azad olunduqdan sonra geniş vüsət alıb: "Hazırda Azərbaycanın bütün bölgələrində, xüsusilə də işğaldan azad edilmiş ərazilərdə intensiv yenidənqurma işləri həyata keçirilir. Şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz – bir vaxtlar viran edilmiş yaşayış məskənlərimiz demək olar sıfırdan yenidən qurulur. Bu prosesdə təmsil etdiyim Dövlət Şəhərsalma və Arxitektura Komitəsi çox fəal iştirak edir. Komitə istər yaşayış məskənlərinin, şəhər, qəsəbə və kəndlərimizin şəhərsalma sənədlərinin, baş planlarının hazırlanmasında, istərsə də həmin layihələrin bilavasitə icrasında mühüm rol oynayır".



**"Matanat A" Şirkətinin Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində təlim proqramı həyata keçirilmişdir.**

Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyası (ATMİA) , "Matanat A" Şirkəti və Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi arasında qurulan qarşılıqlı əməkdaşlıq çərçivəsində birgə təlim proqramı həyata keçirilmişdir.

Proqram çərçivəsində “Matanat A” Şirkətinin nümayəndələri müəssisənin istehsal etdiyi MİRVANA boyalarının tətbiq sahələri və istifadə qaydaları haqqında Mərkəzin “Quru inşaat işləri” ixtisası üzrə təhsil alan tələbələrə praktiki və nəzəri təlim keçmişlər. Təlimin sonunda iştirakçılar əldə etdikləri bilik və bacarıqları təsdiq edən sertifikatlarla təltif edilmişlər. Bu əməkdaşlıq peşə təhsili ilə sənaye arasında əlaqələrin gücləndirilməsi, gənc mütəxəssislərin tikinti sektoruna peşəkar şəkildə inteqrasiyasına dəstək olmaq məqsədi daşıyır.



**ATMİA nümayəndələri Bakuarchifest 25-də iştirak etdi.**

Bakuarchifest 25 bu il “Şəhərsalmada Yol Axtarmaq” mövzusu ilə şəhərlərin yalnız fiziki məkan deyil, həm də mədəniyyət, memarlıq və icmalar arasında körpü olduğunu vurğuladı.
ATMİA nümayəndələrinin də iştirak etdiyi tədbir memarlar, dizaynerlər və fikir liderlərini bir araya gətirərək sənayenin ən aktual məsələlərinin müzakirəsi üçün mənalı dialoq platforması rolunu oynadı.
Şəhərsalma sahəsində müasir tendensiyalarla bağlı müzakirələr, innovativ yanaşmalar və peşəkar əlaqələr gələcəyin şəhərlərinin formalaşmasına ilham verir.



**Hörmətli Assosiasiya üzvləri,**

Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində tikinti profilli Rəngsaz və suvaq ustası, Quru inşaat işləri ustası, Elektrik qaz qaynaqçısı, Elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis, Təmirçi çilingər, Çilingər-santexnik, Dülgər və s. ixtisaslar üzrə tədris aparılır. Üzvlərimiz Mərkəzdə tələbələrə qeyd olunan ixtisaslar üzrə təlim keçməyə dəvət olunurlar.Bundan əlavə, Mərkəzin ümumi sahəsi 54 $m^2$ olan istehsalat otağının döşəməsinin təmiri nəzərdə tutulur. Döşəmə məhsullarını ianə etmək və həmin məhsullar haqqında tələbələrə təlim keçməkdə maraqlı olan üzvlərimizdən bunu bizə bildirmələrini xahiş edirik.

Əlavə məlumat və müraciət üçün: 050 250 95 17

ATMİA

**Hörmətli Assosiasiya üzvləri,**

13-14 noyabr Özbəkistanın Daşkənd şəhərində Mərkəzi Asiya ölkələri üzrə iqtsadi əməkdaşlıq Forumu keçiriləcək. Forumda Azərbaycan, Özbəkistan, Qazaxstan, Qırğızıstan, Türkmənistan, Tacikistan rəsmiləri və aparıcı şirkətlərin nümayəndələri iştirak edəcəklər. Forumda b2b görüşlər, plenar iclaslar keçiriləcək. Mərkəzi Asiya ölkələrində tikinti materiallarına böyük ehtiyaclar var. Buna görə də, iştirakçı tərəflər öz şirkətləri haqda broşurlar, kataloqlarla iştirak etməlidirlər. Forumun işçi dili rus dili olduğu üçün dialoqlar rus dilində aparılacaq.

Səfərlə bağlı ətraflı məlumatı aşağıda qeyd olunan nömrə ilə əlaqə saxlayıb ala biləsiniz.

010 250 03 24

**Hörmətli Assosiasiya üzvləri,**

23-29 noyabr tarixlərində Efiopiyanın Əddis Əbəbə şəhərində AFAZ və Azərbaycanın Efiopiyadakı Səfirliyinin birgə təşkilatçılığı ilə biznes forum keçiriləcək. Forumun məqsədi Afrika Azərbaycan iqtisadi əlaqələrini genişlərndirmək, ticarət, sənaye sahələrində əməkdaşlığın təşviqidir. Forumda B2B görüşlər, iclasların keçirilməsi nəzərdə tutulur. Məhsullarını Afrika bazarında tanıtmaq fürsətini dəyərləndirmək istəyən üzvlərimizdən səfər haqqında ətraflı məlumat almaq üçün aşağıda qeyd olunan nömrə ilə əlaqə saxlamaları xahiş olunur. Missiyamız qloballaşmaqdır....

Əlaqə üçün: 050 250 95 17

**Sərginin adı: CAM - EURASIA GLASS 2025**

**Tarixlər: 15-18 noyabr 2025-ci il,**

**Məkan: Tüyap Sərgisi Konqres və Konqres Mərkəzi, İstanbul (Türkiyə)**

Şüşə Məhsulları və Tətbiqləri, İstehsal - Emal Texnologiyaları və Maşınları, Köməkçi Məhsullar və Kimyəvi Məhsullar Sərgisi

**Sərginin adı: CTW - CHINA TRADE WEEK - SAUDI ARABIA 2025**

**Tarixlər: 18-21 noyabr 2025-ci il,**

**Məkan: Dəhran Beynəlxalq Sərgi Mərkəzi, Dammam (Səudiyyə Ərəbistanı)**

Çin Ticarət Həftəsi - Səudiyyə Ərəbistanı, sənaye liderlərini, investorları və sahibkarları Yaxın Şərqin dinamik bazarları ilə birləşdirən B2B və B2G sərgisidir.

**Sərginin adı: JAPAN HOME & BUILDING SHOW 2025**

**Tarixlər: 19-21 noyabr 2025-ci il,**

**Məkan: Tokio (Yaponiya) Tokio Beynəlxalq Sərgi Mərkəzi (Tokio Böyük Görünüş)**

Yaponiya Ev və Tikinti Sərgisi. Bu, mənzil, kommersiya obyektləri, ofislər, çoxkomplekslər və daha çox şey üçün tikinti materiallarını, komponentlərini və xidmətlərini tək bir dam altında bir araya gətirən hərtərəfli bir sərgidir.

**Sərginin adı: METALWORK AND WELDING SHOW 2025**

**Tarixlər: 19-21 noyabr 2025-ci il,**

**Məkan: Sibir Beynəlxalq Sərgi Biznes Mərkəzi, Krasnoyarsk (Rusiya)**

Bütün sənaye sahələri üçün maşınlar, alətlər, avadanlıqlar, qurğular, texnologiyaların ixtisaslaşmış sərgisi. Metallurgiya və Metal emalı, Qaynaq, Nasoslar. Kompressorlar, Axın aşkarlanması, Kompozit materiallar….

**GÖYÇAY RAYON İCRA HAKİMİYYƏTİ TENDER KEÇİRİLİR.**

Göyçay Rayon İcra Hakimiyyəti açıq tender elan edib.
Elan 2025-ci ildə Göyçay şəhərinin prospekt və küçələrində asfalt örtüklü yolun əsaslı təmiri və Göyçay şəhərinin prospekt və küçələrində (səki) asfalt örtüklü yolun əsaslı təmiri işlərini əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Musa Salahov, Sektor müdiri- baş mühasib
Email: musa.m.salahov@gmail.com
Əlaqə telefonu: +994 99 450 73 76 (600)



**"TİKİLMƏKDƏ OLAN OBYEKTLƏRİN MÜDİRİYYƏTİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER KEÇİRİR.**

"Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Elanda Füzuli şəhərinin magistral su xətlərinin, tullantı, yağış kollektorlarının və qurğularının tikintisinin LS sənədlərinin hazırlanması və tikintinin həyata keçirilməsi çərçivəsində TSTQT nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Yusif Hüseynov, Planlama və Satınalmaların Təşkili şöbəsi baş məsləhətçi-şöbə müdirinin müavini
Email: yusif.huseynov@toom.gov.az
Əlaqə telefonu: +994 55 225 12 31



**SUMQAYIT ŞƏHƏR İCRA HAKİMİYYƏTİ BAŞÇISININ HACI ZEYNALABDİN QƏSƏBƏSİNDƏ NÜMAYƏNDƏLİYİ TENDERİ ELAN ETDİ.**

Sumqayıt Şəhər İcra Hakimiyyəti Başçısının Hacı Zeynalabdin Qəsəbəsində Nümayəndəliyi açıq tender elan edib.
Tender layihə-smeta xidmətlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Ceyhun Qasımzadə, Baş məsləhətçi-baş mühasib
Email: Ceyhun20406@gmail.com
Əlaqə telefonu:+994 50 203 04 40



**AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDERİ ELAN ETDİ.**

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa,tikinti Və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Tender "Ağdam rayonu, Sarıcalı və Kəngərli kəndləri üzrə tibb məntəqələrinin tikinti-quraşdırma işləri"nin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Liana Şükürova, Böyük məsləhətçi
Email: l.shukurova@afxbti.gov.az
Əlaqə telefonu: +994 10 311 33 02





**www.atmia.az**